# Vətənin daş yaddaşında iz qoyan alim



**Rizvan Qarabağlı (Rizvan Sarı oğlu Babaşov) 10 yanvar 1956-cı ildə Füzuli rayonunun Şükürbəyli kəndində anadan olub. Memarlıq üzrə fəlsəfə doktoru, dosentdir. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Memarlar və Rəssamlar İttifaqlarının üzvüdür. Bu günədək dövri mətbuatda 300-dən çox elmi məqaləsi və çoxsaylı monoqrafiyaları çap edilib. Rizvan Qarabağlının tədqiqat obyekti Qarabağ, Zəngəzur, Qərbi Azərbaycan, Naxçıvan, Şəki-Zaqatala, Gədəbəy, Daşkəsən, Göygöl, Gəncə-Qazax və Quba-Qusar regionlarının memarlığı ilə bağlıdır.**

"Memar Kərbəlayi Səfixan Qarabaği" (1995), "Qarabulaqdan Füzuliyədək" (2004), "Füzuli rayonunun memarlıq abidələri" (2017), "Tovuz memarlığı" (2011), "Qarabağda sənət və sənətkarlar" (2012), "Qarabağın memarlıq irsi" (2021), "İrəvan necə varsa: Keçmişdən bu günə" (həmmüəllif, 2022) "Heydər məscidi" (2025), "Gədəbəyin memarlıq abidələri" (2025), "Seyid Əşrəf ziyarətgahı" (2026) kitabları və Azərbaycan Milli Ensiklopediyasının memarlıq bölməsi alimin diqqətəlayiq əsərləridir.

Müasir korifey memarların həyat və yaradıcılığından bəhs edən "Memar Qəzənfər Əlizadə" (1993), "Memar Şamil Fətullayev" (1994), "Ömür yolu" (1998), "Elmin zirvələrində" (2004) və s. əsərləri də oxucular tərəfindən maraqla qarşılanıb.

R. Qarabağlı elmi axtarışları ilə yanaşı, həm də maraqlı layihələr işləyib həyata keçirib. Onun layihəsi ilə Füzuli rayonunun Horadiz şəhərində "Heydər parkı", "Füzuli şəhidlərinə xatirə kompleksi", Şükürbəyli kəndində cümə məscidi, Xırdalan şəhərində "Misir parkı", "Seyid Əşrəf ziyarətgahı" və çox saylı fərdi yaşayış evləri inşa edilib.

yanvarın 10-da memar-alim Rizvan Qarabağlının 70 yaşı tamam olur. O, bu yaşın 36 ilini, AMEA Memarlıq və İncəsənət institutunda çalışaraq, Azərbaycan memarlığının tarix və nəzəriyyəsi tədqiqinə həsr edib. Bununla bağlı o, elmi qurumlar tərəfindən dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Biz də öz növbəmizdə yubilyarı səmimi qəlbdən təbrik edir, ona can sağlığı və yaradıcılıq işlərində yeni-yeni uğurlar arzu edirik.

**Ramin QULİYEV**
**AMEA Memarlıq və İncəsənət İnstitutunun elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

Elm .-2026.-9 yanvar (№ 1).- S.4.